

RƏŞİD BƏRGÜŞADLI

# CƏNGİ

(hekayə)

*(Şəhid dostum Məğrur İsgəndər oğlu Şirinovun əziz xatirəsinə)*

Bizim kənd vur-tut 36 evdən ibarət idi. Vallah, kartofunu yalandan tərifləyən alverçi kimi çıxmasın, - kəndimizin şənliyini, gözəl adətlərini hələ başqa heç yerdə görməmişəm. Bir də görürdün ki, gecə saat on birin yarısında kəndin 3-4 ailəsi "dəstə ittifaq" yığışıb bir-birinə qonaq gedir. Zeynəbin, Şövkətin, İslamın konsertinə təkbaşına baxmağa qıymazdılar. Poçtalyon kəndə girən kimi "Ekran efir" qəzetini almağa tələsərdik.

Alan kimi də ilk olaraq həftənin gecə konsertlərinə göz gəzdirib ailəvi məşvərətə başlardıq, - "Zəynəbə Xudayargildə, Aşıq Ədalətə Səmərqəndgildə, Arif Babayevə isə Mirzəgildəyik". Kənd cammatı sübh ertədən mal-qaranı nobata komalayanda öz simsarından soruşardı ki, - "Axşamkı konsertə kimgildə baxacaqsınız?" Hətta, çoxluq muğamata Əhmədiyyəgildə baxmağı planlaşdırıbmışlarsa, vecimizdə olmazdı ki, axı yazığın evində bu qədər adama yer yoxdu... Heç eynimizə də almadan biz də onlara yollanardıq. Çünki, Əhmədiyyə dayı ilə muğamata baxmaq başqa bir ləzzət idi. O, gözəl muğam bilicisiydi, biri hətərən-pətərən oxuyanda deyərdi ki, - "Bına bax ey! Nainsaf, ayağı düzgün vermədi, burda mayeni buraxdı, bu yerini oxumadı..." - hətta, səsi olmasa belə, "boğazları" özü xırdalayardı... Görəsən, 15-20 nəfərin darısqal bir otaqda Zeynəb Xanlarovanı dinləməsindən gözəl başqa bir aləm olarmı..? Fikirləşməzdik ki, gecənin bu vaxtı camaatın yerini dar eliyirik. Hələ, bizim yanımızdaca Cəfər dayı yorğanın altında şalvarını soyunub, - "Gecəniz xeyirə qalsın, mənim yuxum gəldi, sabah mənə də kinonun dalını danışarsınız" - deyərək xorhaxor yatanda nə etika, nə bilim daha nə.., heç vecimizə də olmurdu - onun çarpayısının ayağınaca söykənib televizorun gur səsinə qulaq asardıq. Acanda, öz evimiz kimi yemək bişirib yeyər, qazanda ev sahibinin payını saxlayar, qab-qacağı yuyar, konsert-kino bitəndən sonra isə televizoru söndürüb, qapını örtüb evimizə dağılışardıq.

...Amma bu gethagəldə ayrılmaz bir dostum vardı. Bizimkilərin kimgilə getməsindən asılı olmayaraq, dostum Məğrurla ikimiz konsertin, kinonun dadını sinif yoldaşlarımızdan birinin evində, ya da kəndimizin başında tək-tənha yaşayan Durna nənəgildə çıxarardıq. İkimiz bir qızı sevmişdik - Sarıtelin üstündə bir dəfə yumruq davasına da çıxmışdıq. Lakin, sən demə, qız çoxdan başqasına ürək veribmiş. Elə bizi dostlaşdıran da qızın bizi "atmağı" olmuşdu.

Durna nənə təklikdən bezdiyi üçün onsuz da evdə tapılmırdı. Açarın yerini bilirdik - qapının kandarındakı qoyun dərisinin altında gizlədərdi həmişə. Çox vaxt sinif yoldaşlarımızla dərslərimizi də elə bu sakit guşənişində oxuyardıq - yoxsa, dədəmiz itmiş heyvanı axtarmağa göndərəcək, sa-

bah da dərsdə yazı taxtasının qarşısında boynumuzu bükəcəydik. Oxumaq istəyimiz ancaq "adam" olmaq arzusundan doğmurdu - bu, həm də izahını bilmədiyimiz bir instinkt idi. Durna nənə bizi çox sevərdi, çayımızı-çörəyimizi verib qulluğumuzda durmaqdan elə şövqlənərdi ki, biz də bu sevinci onun əlindən almağa qıymazdıq - evini boş qoymazdıq. Əlimizə keçəndən, evdəki artıq-urtuqdan gətirib Durna nənənin taxcasını doldurardıq - onsuz da hamısını axşamlar özümüz yeyirdik. Biz cavanların ikinci doğma eviydi Durna nənənin birgözlü, torpaq döşəməli evi. Ağ-qara "Vityaz" televizorun antennası canımızı boğazımıza yığmışdı. "Raskladuşka"nın alimünium profillərindən düzəltdiyimiz bu antenna şeytan əməli kimi konsert, ya da futbol başlayan kimi özünü qoyurdu gaylığa - televizorun əsməcəsi dayanmırdı. Yumruq yeməkdən zavallı televizorun lakı qopuq-qopuq olmuşdu. Evin damına düşüb-çıxmaqdan azbest şiferləri dəlik-deşik etmişdik. Yağış yağan kimi yazıq arvad qazan-qablamanı düzürdü yağış damcılarının altına - yoxsa, torpaq evin döşəməsi zığpalçığa dönərdi.

...Elə sürətlə böyüdük ki... Qüdrət dayının bağından son dəfə əzgil oğurlayanda bir boy-buxunumuza, bir də əlimizdəki oğurluq əzgillərə baxıb xəcalət çəkdik, - "Boyumuz-bosumuz yerə girsin!" - dedik. Artıq bizim 18-19 yaşımız vardı. Özümüzü təzəcə tanıyırdıq ki, lənətəgəlmiş ermənilərin növbəti quduzluq tutması başladı. Uzun sözün gödəyi, ermənilərin qabağını ala bilmədik, canımızı götürüb hərəmiz bir tərəfə qaçdıq. Hər ev, hər məhəllə uğrunda qan tökməyi lazım bilmədik, bəlkə də ağlımıza gətirmədik, bəlkə də ağlımıza salan olmadı... Məğrur isə bacardığını elədi. Qubadlı alınandan sonra Fizulidə vuruşdu. Mənqələnata yüksəkliyində minaya düşüb bir ayağını dizdənaşağı itirdi, digərini isə kəsilməkdən güclə xilas edə bildi.

...Yiyəsizlikdən, başsızlıqdan bezib həm dincimizi almaq, həm də ana-bacılarımızı İmişlinin ilanmələyən çöllərindən yığışdırıb bir quru dam altına soxmaq üçün nəfəsimizi dərmək istədik. Lənət olaydı ana-bacı haqqında düşündüyümüz həmin günə! Məğrurgil və biz Bakıya yorğan-döşəkdən ibarət yükün üstündə zülüm ayaqlaya-ayaqlaya düz iki gün yol gəldik. Yük maşının belində oturmaqdan baldırlarımız şişmişdi. İki hinduşqanın soyutması altımızda iylənmişdi, ağlımız da kəsməmişdi ki, bir loxma qoparıb yeyək. Bax, ilk dəfə "qanın donmağı"nın, "basaratın bağlanmağı"nın nə olduğunu köç edəndə bilmişdim.

Polis şlaqbaumlarını yara-yara İnşaat Mühəndisləri Universitetinin yataqxanasına soxulduq. Hələ bu azmış kimi, dərslərini oxuyan yazıq tələbələrin kitabını balkondan tullayıb, - "Rədd ol, get vuruş!" - deyib dalına bir təpik də vurduq, gecə vaxtı isti otaqlarından qovduq yazıqları. Dədəmizin evi kimi zavallıların otaqlarına yiyələndik. Ta, o vaxtdan sonra düz on-on beş il qovduğumuz tələbələrin bir gün qayıdıb halal otaqlarından bizi çıxaracaqları günü səksəkə ilə gözlədik. Amma bu iyirmi ildə gələn olmayıb, bir daha gələcəklərini də gözləmirik. Gəlsələr də çıxan deyilik daha - çox sırtıldıq, çox, lap çox...

Öyrəşdik yayı qızmar küləkli, qışı qar çovğunlu, nəşəsi bol Yasamala - sükutu hər gün bir-biriylə boş şey üstündə boğuşanların yataqxana həyatına. Rahat nəfəs ala biləcəyimiz bir təbiət mənzərəsi vardısa, o da "Qanlı göl" idi. Hər ötən il vətənə dönmək istəyimizi bir az da yadırğadırdı bizə. Zaman, sanki bu istəyi, cini aldadıb şüşəyə soxan kimi şüşəyə qoyub ağzını da tıxaclayaraq "Qanlı göl"ün dərinliklərinə tullamışdı...

Günümüzün çoxunu Məğrurla birlikdə "Qanlı göl"ün qırağında keçiririk. Hərdən xəyalların qanadında göz yaşlarımızı silə-silə qoyub gəldiyimiz yerlərin qucağına elə cumurduq ki, keçiçıxmayan yol-rizləri elə gəzişirdik ki, təkayaq Məğrurun yerişinə çata da bilmirdim.

Bir gün onu çox kefsiz gördüm. "Bir şey olmayıb ki qaqa?" - deyə soruşdum. Dedi, - "Bayaq televizorda qarazurnada "Cəngi"ni çalırdılar. Rəhmətlik Əliyar müəllim yadıma düşdü. Yadındadır, bizim kənddə mismarla dolu taxtanın üstünə uzanıb biz cavanları sinəsinin üstünə çıxardığı günlər? Rəhmətlik deyirdi ki, - "Bir "Cəngi" çalan ola, qabağımda da alınmaz düşmən qalası, qara zurnanın səsinə o qalanın divarlarını lay-lay gəmirərəm, gövşəyib udaram... Allah rəhmət eləsin, gör nə qədər igidlərin başını yedi bu müharibə... Qaqa, axırımız necə olacaq bizim? Görəsən, Allah nə vaxtsa insafa gəlib bizi bu zillətdən qurtaracaqmı? Bilirsən nə arzulayıram? Yadındadır, axırıncı çərşənbədə kosa bəzənib ev-ev gəzməyimiz, danqa bir manatlıqlar yığdığımız günlər?"

-Hə... Hələ sənə arvad paltarı geydirmişdik və söz vermişdik ki, buna görə pulu böləndə sənə 50 qəpik artıq pul verəcəyik.

-Amma atdınız mənə, vermədiniz...

-Hamısını Rahid elədi. Şeytanladı ki, - "Nağara üçün keçi dərisi gətirmişəm, qamışdan tütək düzəldəndə əlimi kəsmişəm" - qapazladı sənin halal pulunu, vicdansız...

-Görəsən, helver Rahid neyləyir indi?

-Nə edəcək, deyirlər Bakı-Sumqayıt elektriçkasında xlor satır.

-Sənin günəbaxan tumundan,"bakkuş"undandırsa onun biznesi daha yaxşıdır ki... Kaş ayağım olaydı, sinif yoldaşlarımızı toplayıb kənd camaatımızın yaşadıqları yerləri tapaydıq və bu Novruzda yenə kosa bəzəyib ev-ev gəzəydik...

-Səncə bizə yenə pul verərlər?

-Olsa niyə vermirlər ki, lap canlarını da verərlər. Gəlsənə cəhd edək, Novruza nə qalıb ki, həm də üzlərini görərik. Gör neçə ildir ki, kəndçilərimizi görmürük, hərəsi bir dərəyə səpələnib... O gün kəndin evbəev siyahısını tuturdum. Nə qədər hıqqındımsa 35 evi tapdım - birini tapa bilmədim. Axşam yuxuda Vəligilin evini güclə tapa bildim.

-Evləri təpənin başındaydı axı, ona görə unutmusan yəqin... - dedim.

* * *

...Off.., off! Üç gün bundan qabaq Fizuli köçkünü, qonşumuz Arif oğluna toy edirdi. Toya yazdıracağımız nəmərin əvəzini çıxarmağın həşirindəydik. Məclisin şirin yerində qarazurnada çalınan "Cəngi"nin zil səsinə yerimdən dik atıldım. Təpəmə elə bil bir vedrə qaynar su əndərdilər. Yanımdakılar heyrətlə, - "Nə oldu sənə!" - deyə soruşdular. Qaça-qaça bayıra çıxdım. Sözsüz ki, görənlər, - "Yəqin qusmağa qaçdı..." - düşündülər. Ancaq bayırda məni elə bir hönkürtü tutdu ki, heç anamın yasında belə ağlamamışdım. Toya nəmər də saldırmadım, şadlıq sarayının qarşısındakı taksilərdən birinə oturub, - "Yasamal qəbristanlığına sür" - dedim. Sürücü qəbristanlığa girmədi - başdaşı düzəldilən sexin yanında maşından düşdüm. Havalı adamlar kimi, - "Məğrur, ay Məğrur!" - deyib, ayaqlarım bir-birinə dolaşa-dolaşa zil qaranlıqda dostumun məzarını fəhmlə tapdım. Kənd yerində kolxozun yoncalığında çaqqallar necə ulaşardısa, mən də elə uladım bu heykəllər qəbristanlığında. Şivənim yatmış ruhları yerindən dikəltdi. Dostumun sinədaşını göz yaşlarımla islatdım:

-Bağışla, qardaşım, bağışla məni. Səni qoruya bilmədim, səni nəzarətsiz buraxdım. Sənsiz çox darıxdırıcıdır bu dünya, bu Yasamal. Artıq sənsiz Qubadlıya qayıtmağın ləzzəti də qalmadı, qardaş. Gör harda doğulmuşdun, harda torpağa qismət oldun! Bu torpaq səninlə nə qədər qiymətə mindiyini görən bilirmi..? Torpağın sotunu 20-30 minə satan nanəciblər görəsən anlayırlarmı ki, sənin o sota qarışmış ruhunu da satırlar..!

...Səhəri günəş gözlərini açanda məni Məğrurun sinə daşına söykənib yatan yerdə görmüşdü.

* * *

...Novruz bayramı yaxınlaşırdı. Uşaqların yandırıb atdığı "vzrıvpaket" - fitillərin səsindən evdə oturmalı deyildi. Yeriyəndə bir gözün balkonlarda qalırdı ki, bu saat fitil təpəndə partlayacaq. Uşaqlar əlinə keçən taxta, köhnə mebel, maşın təkəri, ağac budaqlarından iri bir qalaq toplamış, "Qanlı göl"ün sahilində Novruz tonqalı üçün tədarük görmüşdülər.

Martın 17-sı idi... İki gündən sonra həm də Məğrurun ad günü - 39 yaşı tamam olacaqdı. Axşamsərini korpusumuzun qabağındakı "Göbələk" kafesində oturub "məftil arağı"nı kolbasayla gillədirdik. Birdən, Məğrur qulaqlarını qarazurnada çalınan "Cütcü"yə şəklədi. Bu, televizor səsinə bənzəmirdi.

Məğrur:

-Vallah televizor deyil... - dedi.

-Hə, 2-ci korpusda yaşayan laçınlı Qoşunəli və nağaraçı Xanlardır - Novruzqabağı "alətlərini" sazlayırlar gölün qırağında, - komendantımız şəkili Mübariz izahat verdi.

Məğrur mənə:

-Arabamı onların yanına sür, qaqa, onlara yaxından baxmaq istəyirəm. - dedi.

Mübariz:

-Əşşi, otur yeməyimizi yeyək, qaçmırlar ki, istədiyin vaxt çağıraram, səninçün nə qədər istəsən çalsınlar. - dedi.

Mən:

-Onu tanımırsan? O ki, qarazurnanın səsini eşitdisə, cilov gəmirən at kimi dartınıb buruntağını qırmayınca rahat durmayacaq. Yaxşısı budur siz davam edin, mən qaqamı sürüm onların yanına.

Məğrur:

-Siz Allah inciməyin, çoxdandır canlı qarazurna görmürəm, mən onların çalğısına yaxından baxmasam bağrım çatlar.

Əlil arabasını pillələrdən endirib "Qanlı göl"ün yanına sürdüm. Çalğıçılara yaxınlaşanda artıq Məğrur çiyinlərini atıb-tuturdu. Bayaqdan içdiyi-

miz araq və qarazurnada çalınan oyun havası onun kefini lap açmışdı. Körpə uşaq kimi gözlərindən sevinc yaşı yağırdı.

5-6 nəfər uşaq ortada oynaqlayırdılar. Məğrurun sifəti qızarmışdı, sevinc, həyəcanı bir-birinə qarışmışdı. Biləyi ilə yanaqlarına diyirlənən yaşı silir, əl çalır, arabadaca dingildəyirdi. Balacaların oynamağına elə həvəslə baxırdı ki, az qala özü durub bu saat şıdırğı oynayacaqdı. Ayaqlarının bu saat yerinə qayıdacağını gözləyirdim - elə bil yeri göyə tikmək istəyirdi... "Bu yaraşıqda oğlanı, belə igidi niyə şikəst edirdin, Allahım..?" - özüm də doluxsunmuşdum. Sarıteldən sonra heç kimi sevmədi. Sarıteli də uşağı olmadığına görə ər evi boşatdırmışdı. Qaçqınlıqdan sonra anası nə qədər cəhd elədisə də Hürzad xala öz qızını Məğrura verməmişdi, - "Çolağa kim qız verər axı, qınamayın məni..." - demişdi. Sarıtel isə susmuşdu. Bu da bir dərd olmuşdu ona - içində gömdüyü qönçə bir sevgi, nakam eşq də daşıyırdı Məğrur...

-Qoşunalı əmi, qurbanın olum bir "Cəngi" çalsana... - az qala yalvardı.

"Cəngi"nin ortalarında arabanı altından arxaya itələyib durdu. Durdu... "Vallah, ayağa durdun qaqa!" - deyə qışqırdım. Ancaq kəsilmiş ayağının qatlanmış balağı yerə düşənəcən o da üzüstə yerə sərildi. Uzandığı yerdəcə hönkürə-hönkürə yeri yumruqladı. Köməkləşib onu arabasına oturtduq. Ağız-burnunun suyu, gözünün mütüyü bir-birinə qarışmışdı. Uşaqlar hürkmüşdülər - qorxudan qaçdılar. Bir bəhanəylə Qoşunalıgil də aradan çıxdı. Neyləsinlər, ağır dərd idi. Onların da öz dərdləri vardı, - "Hərənin dərdi özünə dəvə boydadı"...

Dostumun boynunu qucaqlayıb onu kiritmək istəyirdim. Amma o, dəli kimi hönkürməkdən yorulmurdu:

-Məni tək burax..! - dedi.

-Yox, qaqa, mən səni tək qoymaram. Gəl, evə gedək...

-Getmirəm! Onda get aşıqları geri çağır, ya da kəlbəcərli aşıq Nizamiyə de, sazını götürüb gəlsin...

-Yaxşı... Amma ehtiyatlı ol, mən bu saat qayıdıram.

Qoşunalıgilin dalınca cumdum. Qayıtmaq istəmədilər. Aşıq Nizamigilə qaçdım, Məğrurun vəziyyətini anlatdım. Sazını əlinə götürüb, - "Düş qabağa..." - dedi. Ayağımın altında, başımda partlayan fitillər vecimə də deyildi. Nizami bir-iki balkona boylanıb, - "Sizin südünüzə..." - deyib ləngiyəndə onun qolundan tutub gölə tərəf dartırdım...

...Fitil səslərinin içində itən bir partıltıdan tüklərim biz-biz oldu, - "Bu səs fitil səsi deyildi!". Aşığı qoyub gölə tərəf götürüldüm. Tapançası olduğunu bilə-bilə onu təkbaşına buraxdığım üçün özümü o ki var söyürdüm. Məğrurun əlindəki tapança şəhadət barmağından sallanıb qalmışdı. Tapançanı əlindən alıb kənara tulladım. Güllə boynundan dəymişdi. Ağ göynəyi şah damarından bıldır-bıldır axan qanı özünə çəkirdi. O, gülləni beyninə sıxacaq qədər məğrur, qorxmaz biriydi. Sadəcə ölümünü nağdıladıqdan sonra son dəfə sevdiyi saza qulaq asmaq üçün bu fani dünyada bir neçə saniyə ləngimək istəmişdi. Bu tapançanı müharibədə öldürdüyü erməninin üstündən götürmüşdü və arabasında - döşəkcənin altında gizlətmişdi. Tapançanı silib-yağlamış, ad günündə havaya "canlı atəş" açmağa niyyətlənmişdi. Nizamiyə bağırdım, - "Tez həkim çağır!". Məğrur qoymadı, - "Getsən öləcəyəm... Qoy, çalsın..." - dedi. Nizami dünyagörmüş daşürəkli kişiydi. Can verən doğma balasının hələ soyumamış meyidini qorxudan qoyub qaçmağın zillətini çəkmiş kişiydi. İyirmi ildir ki, - "Allah mənə ucuz ölüm ver!" - deyib dəli kimi yaşayırdı. Nizami, - "Dəymə, qoy Yasinini özüm oxuyum" - pıçıldadı. Məğrurun üzü güldü, - "Hə.., oxu... Sarıteli..." - dedi. Nizami "Baş Sarıtel"i gözyaşlarıyla çaldı, amma necə çaldı... Mələklərin hamısı yerdəydi, Allahtaala özü də təşrif buyurmuşdu yerə. Əzrayılı bu canalmaya buyurmağa qıymamışdı - bu dəfə özü alacaqdı igid canını. Məğrur arabasında göylərlə əlləşə-əlləşə qolları yanına düşənəcən son dəfə "oynadı". Nizaminin göz yaşları, Məğrurun axan qanından da betər idi. Biz ayılanda - Xudavəndi Aləm Məğruru qucağına alıb göylərə qaldıranda - onun üzündə lap Durna nənəgildə Zeynəbin konserti vaxtı gördüyüm, indi isə yadırğadığım qayğısız sevinci gördüm. Canını tapşıranadək ona toxunmadıq, ruhunu azad buraxdıq. Nizami sazını yaxındakı turnikin dəmir dayağına çırpıb, - "Səni lənətə gələsən, belə dünya! Sənin tifaqın dağılsın, bizi elimizdən didərgin salan! Səni dərin yatasan, saz, qarazurna icad eliyən! Bizi yaradan, səni görüm...." - sözünün dalını uddu, dizlərini yerə atıb başını qucaqladı. Məğrur canını tapşırmışdı, üzündə qajıyıb qalmış gülüşüylə birgə ölmüşdü. Onsuz da biz də ölüydük - iyirmi illik ayaqüstü ölülər.